Ədəbiyyat qəzeti

# "Abbas Səhhəti sevə-sevə oxumuşam..."

**Aleksandr Qritsenko - Rusiyanın tanınmış dramaturqu, nasiri, tənqidçisi və ədəbiyyat prodüseridir. Onu ədəbiyyatsevərlərimiz "Literaturnaya qazeta" və "Nezavisimaya qazeta - Exlibris"dəki yazılarından, "Radio Rossiya"dakı müəllif proqramından, çoxsaylı teatr tamaşalarından və ən əsası da böyük uğur qazanmış "Xovrin xəstəxanası barədə yuxu" povestindən tanıyırlar.**

**"Debüt", eləcə də İvan Hemnister və Boris Şaxovski adına ədəbiyyat mükafatlarının laureatıdır.**

**Yeni il ərəfəsində Aleksandr Qritsenkodan aldığımız kiçik müsahibəni və "Xovrin xəstəxanası barədə yuxu" povestindən parçanı "Ədəbiyyat qəzeti"nin oxucularına təqdim edirik.**


Aleksandr Qritsenko

## Kiçik müsahibə

***- Yazıçı Aleksandr Qritsenkonu oxuculara qısaca necə təqdim etmək olar?***

*- İnsana özü barədə danışmaq həmişə çətin olur. Məni kolleqalarımdan ayıran ən vacib bir cəhətim var: heç vaxt digər yazıçılara paxıllıq etmirəm. Buna görə də mən təkcə yazıçı - yəni mətn yazan deyiləm, həm də ədəbiyyat üzrə prodüserəm. Mən digərlərinə kömək etməyə həmişə hazıram. Moskvalı şair Andrey Şerbak-Jukov demişkən, Qritsenkonun limanına minlərlə gəmilər üzür.*

***- Ötən 2016-cı il sizinçün nə ilə əlamətdar oldu və 2017-ci ildən nə gözləyirsiniz?***

*- 2015-ci ildə mənim iki kitabım çıxmışdı, bu il bircəsi belə çıxmadı. Amma mən filologiya üzrə elmi işimi yazıb qurtardım. Həmmüəllifi olduğum bir romanı yazıb tamamladıq. Üzümüzə gələn ildə elmi işimin müdafiəsini, romanın çapını gözləyirəm. Eləcə də yeni bir pyes üzərində işləməyə başlayacağam.*

***- Sizcə, hər halda, yazıçı nəyə görə yazmalıdır? Bəşəriyyət yenədəmi əvvəlki kimi ədəbiyyata ehtiyac duyur?***

*- Məncə, yazıçı heç kimə və heç nəyə görə yazmır, yalnız öz qəlbinin səsini dinləyərək yazır. Yaxşı ədəbiyyat isə bəşəriyyətə indi həmişəki kimi və hətta həmişəkindən də daha çox lazımdır.*

***- Azərbaycan ədəbiyyatı barədə nə bilirsiniz?***

*- Mən ilk gəncliyimdən tənqidi realizm janrının ən böyük imzalarından hesab etdiyim Abbas Səhhəti sevə-sevə oxumuşam. Ümumiyyətlə, Azərbaycan poeziyasına yaxşı bələdəm. Zaman-zaman Xəlil Rza, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli, Ramiz Rövşən kimi favorit şairlərim olub. Azərbaycan poeziyasında məni ən çox cəlb edən lirikanın metafizik çalarları olub, şeirlərin həm dünyəvi, həm də ruhani fəlsəfəsi olub.*

***- Sizə ən çox hansı şüar, deviz, aforizm xoş gəlir? Və yaxud, hansı şüarı, devizi, aforizmi daha çox özünüzə şamil edərsiniz?***

*- Ən yaxşısı budur ki, həqiqəti söyləyin! Həqiqət öncə ağrı verir, amma sonradan mütləq sağaldır. Yalan isə müvəqqəti ağrıkəsici olsa da, sonradan öldürə bilir.*

***- "Ədəbiyyat qəzeti"nin oxucularına arzunuz.***

*- Onlara dadlı-duzlu qidadan ibarət mütaliə menyusu arzulayıram.*

## Povestdən parça

# "Xorvin xəstəxanası barədə yuxu"

**O, küçənin o biri üzündəki lənətlənmiş yarımtikili binadan qopub düz onun pəncərəsi qarşısına gəlir, şüşənin üzəri ilə yayılırdı. Qız bilirdi ki, özü nəsə bir səhv etməyincə tüstü otağa girə bilməyəcək, amma söhbət hansı səhvdən gedirdi, bax bu, ona qaranlıq idi.**

### Birinci yuxu

*Lənətə gəlmiş məkanla internet şəbəkəsinin qovuşması*

Bu tərk edilmiş bina Sergeyin azı yüz dəfə yuxusuna girmişdi: pəncərələrin qoparılıb atılmış yarımcan çərçivələri, yarıdağıdılmış pilləkənlər, qraffiti ilə naxışlanmış divarlar...

Divarlardakı insan rəsmlərində insanlar o qədər kədərli idilər ki, sanki çox dərin, sirli bir şeylərdən xəbərdar olduqları üçün tələşlanmışdılar. Rəsmlərin altından isə ölüm, uğursuz sevgi haqqında, burda həlak olanların dostları tərəfindən heç vaxt unudulmayacağı, həmişə anılacağı barədə yazılar yer almışdı.

Divarda bəzən ayrı-ayrı anlaşılmaz sözlərə də rast gəlinirdi. Amma Sergey yuxusunda nə qədər fikrini toplayırdısa da, sanki qəribə bir dumana bürünmüş hərfləri heç cür seçə bilmirdi. Hər halda, bir dəfə o, bu yazıları ayırd edə bildi: "writer", "virgo", "blank", "chloe"... O özünün və yaxın dostlarının İCQ-dəki, ümumən internetdəki - forumlarda, bloqlarda, elektron poçtda, hər yerdəki niklərini tanıya bildi.

Ona və dostlarına aid sözlər bu qorxunc yerdə necə peyda olmuşdu?

Sergey böyük boşluq hiss etməyə başladı. O, başa düşdü ki, havanın nəfəs borusuna yapışaraq ciyərlərə daş kimi dolduğu, hər qaranlıq küncdən qorxunun hücum çəkdiyi, lənətlənmiş kədərli insanların simaları əks olunmuş və matəm yazıları yazılmış qraffitilərin qorxu, xiffət təlaş yaratdığı bu məkanda bu niklərin peyda olması yalnız bədbəxtlik gətirə bilər...

Adətən yuxunun ilk hissəsində Sergey ayılar, sonradan uzun müddət özünə gələ bilməzdi. Amma bu anlama məqamında o ayıla bilmədi, yuxusu davam etdi. O, qəfildən küçədə peyda oldu və bu dəhşətli binanı kənardan görə bildi. Görəndə isə xatırladı ki...

### İkinci hissə

*Xloya və ağ tüstü*

Qızın haçansa adı Anya idi, amma o, öz rus adını başqa, qəribə bir ada: Xloyaya dəyişmişdi. O bunu anasının ölümündən dərhal sonra etmişdi, ağ tüstü anasının içindən bütün həyat eşqini sorub çıxardandan sonra etmişdi. İndi Xloya dəhşətli dərəcədə qorxurdu ki, ağ tüstü onun dalınca geriyə qayıda bilər.

Bu tüstü tez-tez qızın yuxusuna girirdi. O, küçənin o biri üzündəki lənətlənmiş yarımtikili binadan qopub düz onun pəncərəsi qarşısına gəlir, şüşənin üzəri ilə yayılırdı. Qız bilirdi ki, özü nəsə bir səhv etməyincə tüstü otağa girə bilməyəcək, amma söhbət hansı səhvdən gedirdi, bax bu, ona qaranlıq idi. Səhvin nə olduğunu bilməməsi Xloyanı dəhşətli dərəcədə qorxudur, boğur, ağlını başından alırdı.

Yuxu dərhal kəsilirdi və belə olduqda Xloya xilas olduğunu anlayırdı.

O, soyuq tərdə, parçalanmış, amma həm də xoşbəxt halda yataqda uzanıqlı halda qalırdı. Amma çox keçmədən basqı edəcək fəlakətin ab-havası yenidən onu çulğalayırdı. Qız başa düşürdü ki, bu azadlıq deyil, sadəcə kiçik möhlətdir. Ağılsız hissiyyat, qarabasmalar onu günlərcə, həftələrcə, aylarca beləcə müşayiət edirdi. Necə xilas olmağın yolu barədə sonsuz düşüncələrə dalırdı Xloya. Və nəhayət, bir gün o, xilasının nə olacağını anlaya bildi. Qız öz həyatını birər-birər gözünün qarşısında canlandıraraq axır ki, nəyin nə olmasının fərqinə vara bildi.

Uşaqlığını Xloya dumanlı xatırlayırdı. O, atasız yaşadığından ərköyünlük, nadinclik görməmişdi. Düzdür, anası onun heç nəyə ehtiyac duymaması üçün əlindən gələni etmişdi, elə bunun özü Xloya üçün bir xoşbəxtlik idi. Ümumən, yaxşı dövran idi, hərçənd əlamətdar günlər elə də çox olmamışdı.

Məktəbdə bir neçə dəfə sevmişdi, di gəl, ötəri hisslərlə. O dövrdə qız uşaqlarının ciddi sevgi hissləri dəbdə deyildi.

Buraxılış gecəsində Anyaya (o vaxt axı hələ özünü Xloya adlandırmamışdı) elə gəlirdi ki, ən gözəl libas məhz onunkudur. Artıq o dövrdə anasıyla "Pionerskaya" metro stansiyası yaxınlığındakı ikiyaruslu, beşotaqlı elitar mənzildə yaşayırdı. Onların biznesi çiçəklənirdi: beş bolmüştərili gözəllik salonu, beş "brend paltar" adı altında gizli sexdə tikilmiş ucuz keyfiyyətli paltar satan mağaza daim yaxşı gəlir gətirməkdə idi. Qəfildən hər şey qırıldı, onlara xoşbəxtlik gətirən nəsnə qeyb oldu. Əvvəlcə çat verdi xoşbəxtlikləri, sonra paramparça oldu.

Atalığı onları tərk etdi. Bu şəxs anası ilə biznes ortağı olduğu üçün mağazalardan ikisini onlardan qopardı. Ardınca anasına dəhşətli diaqnoz qoydular. Məhz bu diaqnozqoyma öncəsi Anya ağ tüstünü gördü: o, nəfəslikdən soxularaq mənzilə girmişdi, öz-özünə tüstülənirdi. Anya öncə nə baş verdiyini anlamadı, amma hədsiz dərəcədə qorxdu. Tədricən tüstünün dərinliklərinə boylananda oradakı hərəkətdə olan əcaib-qəraib canlı varlığı görməyə müvəffəq oldu.

Tüstü otaq boyu irəliləyirdi, ardınca isə şəffaf quyruq görünürdü. Anya gördü ki, anası arxası üstə lap mərhumlarsayağı hərəkətsiz uzanıb, ağ tüstü də onu bürüməyə başlayıb. Tədricən tüstü şəffaflığını itirdi, qapaqsız ağ tabut şəklini aldı, anası ağ balıncı ilə bu tabutun içinə yerləşmə etdi. Amma bu, cəmi bir an çəkdi, tabut da yoxa çıxdı, tüstü də. Anasını da böyrü üstə uzanıb sakitcə yatan gördü. Di gəl, içinə dolan qorxu əsla getmədi.

Anya anasının çarpayısı ətrafını fırlandı, anasına diqqət etdi. Gördü ki, qadın sakitcə yatmaqda davam edir. Qız çəkilmək istəyəndə anası uzunmüddətli və ağrılı öskürtüyə başladı. Onun üzündə əzab ifadələri yer aldı. Sanki nəsə onu içindən didib-dağıdırdı.

Həmin an qıza hissiyyat gəldi ki, anası tezliklə öləcək. Bu, onun həyatının ən dəhşətli anı oldu. Və bu anı xatırlayarkən qız ağ tüstünün nəyə görə ona toxunmamasının səbəbini tapdı. Adı!..

Ağ tüstü gələndə Anya pıçıltı eşidərdi, tüstümü, yaxud onun içində gizlənən şəxsmi tez-tez anasının adını təkrarlayırdı. Bu an Xloya - Anya başa düşdü ki, onun yeganə xilaskarı adını dəyişdirməsidir...

Tüstünü o bir neçə dəfə gördü, hər dəfə tüstü gələndən sonra anasının halı bir az da pisləşirdi. Anasının adının pıçıltıyla eşidilməsi də hər dəfə diksindirdi onu.

Qəribədir ki, Anya nə anasına, nə tanışbilişə tüstü barədə heç nə deyə bilmirdi. Sanki nəsə onun ağzını kilidləmiş, fikirlərini dondurmuşdu. O, baş verənlərə kənardan, bir müşahidəçi kimi baxmaqda idi.

Həmin günlərin birində anası ona atası barədə danışdı. Halbuki, əvvəllər Anyaya atası barədə nəsə öyrənmək qadağan edilmişdi.

Xloya indi xatırlayır ki, yarımqaranlıq mənzildə o, can verən anasının çarpayısının yanında necə durmuşdu və öz əfsanəvi atasını necə xatırlayırdı. Milliyyətcə ingilis imiş atası və anası ilə ayrıldıqdan sonra heç bilməyibmiş də ki, qızı doğulub.

Damarlarından ingilis qanının axması Anyaya möcüzə kimi görünmüşdü. Axı onun arzularında Dumanlı Albion əcinnələrin, cəngavərlərin, şahzadə və kralların, nəhəng və cırtdanların yaşadığı möcüzəli bir ölkə idi.

Uşaqlığında ən sevdiyi kitab "İngilis xalq nağılları" olmuşdu, o, sövq-təbii İngiltərəyə, bu ölkəylə bağlı hər şeyə vurulmuşdu. Və qəfildən anası ona ingilis atası barədə danışanda qız bu nağıllara aidiyyəti olmasından qanadlanmışdı.

Anası atasının harada olması barədə heç nə bilmirdi, onun barəsində konkret heç nə demirdi, təkcə onu demişdi ki, o şəxs yarıingilis, yarıirlanddır və bir məşhur universitetdə dərs deyir.

Bir neçə gün Xloya İngiltərə xəyalları ilə uçdu, sonra anasının halı daha da pisləşdi, onu bir sutkalıq xəstəxanaya apardılar və ölmək üçün evə qaytardılar. Həmin dönəmdə onlar artıq səfalət içində yaşayırdılar, vardövlətlərinin heç izi-tozu da qalmamışdı. Maqazinləri, salonları, təmtəraqlı bağ evini - hər şeyi artıq satmışdılar...

Elit mənzillərini ucuz panel binadakı birotaqlıya dəyişmişdilər. Hətta mebelləri yox idi, son günlərində anasının çarpayısını belə satmalı olmuşdular, ana və bala döşəmədə yatırdılar.

Anası üç yerindən pambığı çıxmış köhnə sırıqlı adyalın üstündə vəfat etdi.

Anya sonadək ümidli idi ki, nağıl xoşbəxt sonluqla bitəcək. Amma hissləri onu aldatdı.

## İkinci yuxu

*Səslər Sergeyə hökm çıxardılar*

Gecənin dərinliyində çox qəribə şeylər girdi Sergeyin yuxusuna: yanında üç gözəgörünməz insan dayanmışdı, onlar öz aralarında danışır, Sergeylə nə edəcəklərini müzakirə edirdilər.

Sergey birtəhər xatırladı ki, sevdiyi qız Lyudmila ilə "Kostroma - Moskva" qatarının ikinəfərlik kupesindədir.

Vaqonun çarxları çox bərk taqqıldayırdı, sanırdın, qatar dağlardan üzüaşağı bir quyuya yuvarlanır...

Kimlərsə onun həyatını həll edirdilər, demək, sonucu onun ölümü ola biləcək hər nə desən baş verə bilərdi.

O danışanları görməsə belə, necə və nə danışdıqlarına görə zahiri görünüşlərini və xarakterlərini təsəvvür edə bilirdi. Birinci gözəgörünməz şən, həyata daim sevinən, içkiyə meyilli, xanımlarla rahat ünsiyyət qura bilən bir kişi idi. Onun irəli çıxmış qarnı, uzun saçları, azacıq çallaşmış qısa saqqalı olmalı idi.

İkinci gözəgörünməz cinsi bəlli olmayan qəribə məxluq təsiri bağışlayırdı: qısa çirkli saçları, buxağı aydın sezilən yumru sifəti, şişman əlləri vardı. Bu məxluqun gözləri aşkar qadın gözləri idi, sifəti, bədən quruluşu və jestləri isə kişiyə aid idi.

Üçüncü səs incə-mincə bir qıza aid ola bilərdi, beli həddən artıq nazik, saçı uzun bir qıza. Yəqin ki, onun mülayim simasında hərdənbir sərt ifadələr peyda olurdu, bu da ondan qaynaqlanırdı ki, bu zərif bədəndə sərt kişi qəlbi yerləşir.

Sergey başqa bir şey də hiss edirdi. Sanki kimsə arxa planda sakitləşdirici sözlər söyləyirdi: "Şər ruhlar sevgidən qorxurlar..."

Bu fraza azı yüz dəfə təkrarlandı. Amma gözəgörünməzlər özlərindən başqa birisinin də danışmasını duymurdular. Onlar Sergeyin taleyini həll etməkdəydilər.

- Ay arvadlar, əl çəksəniz ondan, - dedi kişi səsi.

Əlavə etdi ki, "Görmürsünüz, insan necə köpərək yatır? Sizə xoş gələr ki, yatarkən öləsiniz?"

- Səninki elə yatmaq və yemək olsun, - incə səsli qız söylədi və dərhal da sözünün davamını gətirdi:

- Yuxudaykən ölmək insanlarcün xoşbəxtliyin ali halıdır. Onlar əmindirlər ki, yalnız içlərinin ən seçilmişləri bu cür ölə bilərlər.

- O ən yaxşısı deyil, - kobud şəkildə ruhhermofrodit söylədi. Onun qadın səsi olmayan səsində isterik notlar hiss edildi.

- Qoy özləri öz aralarında mübahisələrinə aydınlıq gətirsinlər. Onlar axı insandırlar! - kişi dedi.

- Qadın kişinin qarşısında aciz və köməksizdir, - dedi qəribə varlıq.

- Sən səhvsən. Mən onların fikirlərinə soxuldum və nə düşündükləri mənə bəyan oldu. Oğlan qızdan insanlıqda daha yaxşıdır. Oğlanı qorumaq lazımdır, - qız söylədi.

Qəribə varlığa məsələnin bu cür qoyuluşu əsla xoş gəlmədi:

- Necə yəni yaxşıdır?!

- Oğlan həm yaxşıdır, həm də təmizdir. Onun qəlbini bircə görsəydiniz..., - deyib, qız azacıq susdu və sonra fikrini tamamladı:

- Oğlan da nağıl arzulayır, qız da. Amma onun nağılı mələkcəsinə gözəl və safdır, bu bəstəboy, dolu qızınkı isə qapqaradır.

## Dördüncü hissə

*Lisa-Lisa*

Dostları Lyudmilanı Lisa-Lisa adlandırırdılar. O dostları ki, onu canlı olaraq tanıyırdılar.

İnternet tanışları isə ona Virquşa deyirdilər. Çünki bütün forumlarda niki "virgo", yəni "bakirə qız" idi.

Bu 18 yaşlı, bəstəboy, dolu qızın siması əsl uşaq siması idi. Gənc oğlanlar onu çox bəyənirdilər. Tülkü anlamını verən Lisa-Lisa ləqəbini isə ona hiyləgər baxışlarına görə vermişdilər.

O, çox xəyalpərvər qız idi. Həmişə nağıllar aləmini, xüsusən fentezi dünyasını arzulayır, əbədi olaraq orada yaşamaq istəyirdi. Bəzi kitablar onu sadəcə əyləndirsə də, bəzilərindəki təxəyyül dünyasında o, özünü görə bilirdi. Müxtəlif kişi personajları onu müxtəlif cür aludə edirdi: bəziləri ilə dostlaşmaq, bəziləri ilə içmək, bəziləri ilə ən yaxın ələqədə olmaq istəyirdi. O, bu xəyali qəhrəmanlara on dəfələrlə vurulmuşdu. O, şeytan ünsiyyətli alçaqları çox bəyənirdi.

...Amma nədənsə həyatının bu son dönəmində kitablardan çıxan hansısa qara hava kütləsi onun həyatına nüfuz etmişdi, onu hara gedirdisə qorxu şəklində təqib edirdi.

Qarabasmalar da ondan əl çəkmirdi. Pillələrlə hər dəfə evə çıxıb-düşəndə aşağıdan uzadılmış əl görünürdü gözlərinə.

O, qorxuları barədə Sergeyə də heç nə deyə bilmirdi, sanki ağzını kilidləmişdilər...

Və bir gün...

*Təqdim etdi:*

**VARİS**